Yusifqızı Ə. Canını Vətənə sipər etdi // Xalq qəzeti. - 2023. - 14 mart. - № 56. - S. 14.

Bu sənətə sevdalanan gənc Toğrul 2013-cü ilə qədər «N» saylı hərbi hissədə, həmin ildən 2017-ci ilədək Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində motoatıcı taqım komandiri, sonra bölük üzrə komandir-müəllim, başqa hərbi hissədə tabor komandirinin müavini, həmin hərbi hissədə taborun qərargah rəisi vəzifələrində xidmət etmişdir.

Hər şey «Bir canım var, o da vətənimə qurban olsun!» deyimilə başlayıb. Müharibənin ilk günündən ən ağır əməliyyatlara atılıb. Döyüş yoldaşları danışır ki, əsgərləri ruhlandırmaq üçün tankın üstündə ayaqüstə, dimdik gedirdi, özünü sipər edirdi, həm əsgərlərinə, həm vətəninə. Sonuncu dəfə qardaşı Bəxtiyarla danışıb: «Qardaş, mənə görə narahat olmayın, anamı da televizora baxmağa qoyma, ha...» demişdi. Görəsən, niyə? Ürəyinə dammışdı ki, şəhid olacaq?! Çox sevdiyi qardaşına bir də: «Mənə bir şey olsa, uşaqlarım sənə əmanət» – deyə tapşırmışdı.

Sentyabrın 29-da anası Güllü xanımla danışıb, – hər şey çox əladır, ana, – deyərək, onu sakitləşdirib. Sabahı gün Tərtər–Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Hər dəfə Güllü xanımla görüşəndə onun həzin axan göz yaşlarına dözə bilmirəm. Bir qədər toxdayıb, iftixarla danışır oğlundan: «Toğrul əsgərlərini necə sevirdi, bir bilsəniz?! Öz balası, qardaşı kimi danışırdı onlar haqqında».

Keçmiş əsgəri Kamran Babayev komandirini böyük hörmətlə xatırlayır: «Mən tərxis olunanda cənab mayor kapitan rütbəsində idi, həm də bizim qərargahın rəisi. Kabinetini, sənədlərini mənə etibar edirdi. Tərxis olduqdan sonra zəng edib hal-əhvalını soruşurdum. O da mənə gələcək işlərimdə uğurlar diləyir, tövsiyələr verirdi. Əsgər ikən atam rəhmətə getmişdi. Məni vağzala qədər öz maşını ilə apardı. O, təkcə komandir deyil, bizə böyük qardaş idi. Tez-tez müharibədən danışardı: – Savaşın, qorxmayın, kaş ki, mən şəhid olam, şəhidlik uca zirvədir, – deyərdi. Biz deyirdik ki, cənab mayor, siz general olacaqsınız. Allah sizi qorusun!»

Vətənimin azadlığı və bütövlüyü uğrunda qəhrəmancasına şəhid olan Toğrulun əziz ruhu qarşısında baş əyir, qürur duyur və deyirəm: Müzəffər Ali Baş Komandan İlham Əliyev göstərdiyin qəhrəmanlığa görə səni 3-cü dərəcəli «Rəşadət» ordeni ilə təltif etmişdir, Toğrul! Qurtardığın vətən torpaqlarının hər dağında, daşında üçrəngli bayrağımız dalğalanır, şəhidim. Çox keçmədən o yerlərdə çiçəklər açacaq, alaca gözlü ocaqlar yanacaq, evlər tikiləcək. Yurddaşlarımız o yerlərdə xoşbəxt yaşayacaqlar.

Həkim və general görmək istədiyin övladların Əli ilə Güllü Bakının ən yaxşı liseyində təhsil alırlar, Toğrul. Arzularını, xəyallarını gerçəkləşdirmək üçün

sədaqətli ömür-gün yoldaşın Zəhra xanım onların üstündə yarpaq kimi titrəyir, sənin görmək istədiyin kimi, sənə layiq yetişdirir.

Bakıda yaşadığınız ev çox gözəl təmir olunub, həyətində uşaqlar üçün geniş meydança yaradılıb, sənin mərmər lövhə üzərində barelyefin hazırlanıb. Yevlaxdakı evinizə də getmişdim. Şəhadətinin il mərasimi idi. Canından çox sevdiyin Güllü anan, əziz qardaşın Bəxtiyar da övladların üçün əllərindən gələn hər fədakarlığı edir ki, sən rahat yatasan...

«Hərbi xidmətlərə görə» və «Suqovuşanın azad olunmasına görə» medalları ilə də təltif olunmuşdur. Uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!